UOT 94(479.242)

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN NUXTAR RESPUBLİKASI KƏND ƏHALİSİNIN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ DÖVLƏT SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

***Aytəkin Məmiş qızı Qəhrəmanova***
***AMEA-nın Naxçıvan Bölməsi***
***aytekin1962@mail.ru***

**Açar sözlər:** *Kənd əhalisi, aqrar islahatlar, iqtisadi sabitlik, məşğulluq sahəsi, maddi rifah*

## УЛУЧШЕНИЕ УРОВНЯ ЖИЗНИ СЕЛЬСКОЕ НАСЕЛЕНИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В ГОДЫ НЕЗАВИСИМОСТИ КАК НЕОТЬЕМЛЕМАЯ ЧАСТЬ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

***Айтекин Гахраманова***

**Ключевые слова:** *сельское население, аграрная реформа, экономическая стабильность, занятость, материальное благосостояние*

*В статье рассказывается об аграрных реформах, которые общенациональный лидер Гейдар Алиев основал в 1992 году в Нахчыванской Автономной Республике, в последующие годы в более широком масштабе, оправдывая сами реформы, дало эта толчок всестороннему развитию экономика Азербайджана и повышение уровня жизни население.*

*В статье также содержится утвержденные государством программы регионального развития привели к устойчивым экономическим реформам, а именно, реализация задач, обозначенных в этих программах, будет способствовать развитию ненефтяного сектора, улучшению качества регионов, коммунальных услуг и социальной инфраструктуры, а также улучшению деловой среды, создание условий для увеличения инвестиций, создание новых предприятий и рабочих мест привело к увеличению занятости сельского населения, городского населения и повышению уровня жизни.*

# IN THE YEARS OF INDEPENDENCE, RAISING THE STANDARD OF LIVING OF THE RURAL POPULATION OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AS A PART OF THE STATE POLICY

***Aytakin Gahramanova***

**Key words:** *Rural population, agrarian reforms, economic stability, employment, material welfare*

*The article provides the agrarian reforms founded by national leader Heydar Aliyev in 1992 in Nakhchivan Autonomous Republic and it is mentioned that the reforms carried out in the coming years have proved itself and gained a wider scale, gave an impetus to the comprehensive development of the Azerbaijani economy and raised the standard of living of the population.*

*At the same time, the regional development programs approved by the State lead to the sustainable economic reforms, the implementation of the tasks arising from these programs has contributed to the development of the non-oil sector, improving the quality of supply of regions, public utilities and social infrastructure, further improving the entrepreneurial environment, increasing investment, opening new enterprises and jobs, as a result, raising employment and living standards of rural population along with urban population.*

Hər bir dövlətin qüdrəti onun əhalisinin sosial həyatı, yaşayış səviyyəsi və rifah halı ilə qiymətləndirilir. Əhalinin həyat səviyyəsini yüksəltmək ümummilli lider Heydər Əliyevin inkişaf konsepsiyasının əsas meyarlarından birini təşkil edib. Məlum olduğu kimi, həyat səviyyəsinin yüksəldilməsi ölkədə həyata keçirilən iqtisadi və sosial siyasətdən, həmçinin mövcud resurslardan səmərəli istifadə edilməsindən birbaşa asılıdır. Sosial siyasət əhalinin layiqli həyat səviyyəsinin təmin olunmasına, gəlirlərin yüksəlməsinə, məşğulluğun təmin edilməsinə, sosial müdafiənin güclənməsinə səhiyyə, təhsil, mədəniyyət sahəsində təminatların həyata keçirilməsinə yönəldilən tədbirlər sistemi olmaqla, hər bir dövlətin iqtisadi inkişaf səviyyəsi ilə sıx bağlı olan dövlət siyasətinin tərkib hissəsidir. Dövlətin sosial siyasətinin əsas məqsədlərindən biri əhali gəlirlərinin tənzimlənməsini yerinə yetirməklə həyat səviyyəsinin fasiləsiz yüksəldilməsinə, sosial bərabərsizliyin aradan qaldırılmasına, sosial rifahın təmin olunmasına nail olmaqdan ibarətdir. Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsinin I bəndində deyilir: ”Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yiiksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır [1, s.8 ].

Müasir günümüzdə sosial siyasətin başlıca istiqaməti şəxsiyyətin iqtisadi fəallığının hərtərəfli stimullaşdırılması, hər bir insanın özünün əməyi, enerjisi,

təşəbbüsü və bacarığı ilə özünə və ailəsinə layiqli həyat şəraiti qurulmasının təmin edilməsidir. Dövlətin sosial siyasətinin son məqsədi əhalinin məşğulluğunu, əməkhaqqı və müavinətlərini tənzimləməklə həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Suveren dövlət olmaq hüququnu reallaşdırmaq imkanı qazanan Azərbaycanda ilk illərdə hakimiyyətdə olan müxtəlif qüvvələrin səriştəsiz siyasəti ölkədə olduqca ağır bir vəziyyətin formalaşması ilə nəticələnmişdi. Digər tərəfdən, Sovetlər İttifaqına daxil olan ölkələr arasında 70 il ərzində formalaşmış iqtisadi əlaqələrin bir anda pozulması, istehsalın iflic vəziyyətinə düşməsi, intensiv şəkildə dəyişən qiymət indeksi nəticəsində inflyasiya prosesinin dərinləşməsi sosial-iqtisadi böhranı daha da ağırlaşdırmışdır. Buna paralel şəkildə ayrı-ayrı silahlı qruplaşmaların hakimiyyət uğrunda mübarizəsi, ölkənin siyasi və coğrafi cəhətdən parçalanmaq təhlükəsi ilə üzləşməsi, vətəndaş müharibəsi astanasına gəlməsi, Ermənistanın təcavüzünə məruz qalması, bir milyondan artıq qaçqın və məcburi köçkün ordusunun yaranması kimi amillər vəziyyəti xeyli ağırlaşdırmışdı. İşsizliyin, yoxsulluğun tüğyan etdiyi bu şəraitdə özünü göstərən sosial gərginliyi azaltmaq üçün ölkə iqtisadiyyatının real imkanları nəzərə alınmadan əməkhaqqının və sosial ödənişlərin yüksəldilməsi cəhdləri və çoxsaylı güzəştlərin tətbiqi heç bir nəticə verməyərək inflyasiya prosesinin genişlənərək hiperinflyasiyaya çevrilməsinə gətirib çıxarmışdı.

Bu dövrdə digər bölgələrdən fərqli olaraq Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması, Azərbaycanın ayrı-ayrı bölgələri ilə, eyni zamanda Bakı şəhəri ilə əlaqələrin kəsilməsi vəziyyəti daha da ağırlaşdırmışdı. Enerjinin fasilələrlə verilməsi, yanacağın olmaması, ərzaq məhsullarının tükənməsi, 1991-ci ildən bütün yerüstü nəqliyyat və kommunikasiya əlaqələrinin kəsilməsi, sosialist təsərrüfat sisteminin dağılması, iqtisadi əlaqələrin pozulması və yeni əlaqələrin yaradılmasındakı gecikmələr, müharibə və onun doğurduğu çətinliklər iqtisadiyyatdakı böhranı daha da kəskinləşdirmişdir. Nəticədə ölkənin hər yerində olduğu kimi muxtar respublikada da istehsalın həcmi ilbəil aşağı düşmüş, istər kənd əhalisinin, istərsə də şəhər əhalisinin xeyli hissəsinin işsizliyinə səbəb olmuşdur. 1991-1993-cü illərdə ölkədə baş verən geriləmə sənayedə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşunda isə 40 faizə çatmışdır [2, s.181-182].

Məhz belə bir şəraitdə Heydər Əliyevin Naxçıvana gəlişi, 1991-ci il sentyabr ayının 3-də Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə muxtar respublikanın həyatında tədricən sağlam və möhkəm ictimai-siyasi sabitliyin əsası qoyulmuş, ulu öndərin Naxçıvanda apardığı məqsədyönlü islahatların nəticəsində Naxçıvan düşdüyü ağır vəziyyətdən və böhrandan xilas olmuşdur. Böyük dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin Sədri seçildikdən sonra Naxçıvan MR Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar Respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyinin mökəmləndirilməsi yolunda məqsədyönlü fəaliyyət sahələri idi [3, s. 68].

Dövlət siyasətinin tərkibi kimi Heydər Əliyevin həyata keçirdiyi, iqtisadi zəmində tam əsaslandırılmış məqsədyönlü tədbirlər sayəsində ölkə iqtisadiyyatı, onun böyük bir hissəsini təşkil edən kənd təsərrüfatı ağır böhrandan çıxarılmış, iqtisadi tənəzzülün qarşısı alınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi kənd təsərrüfatı sahəsində 1992-ci il 6 aprel tarixdə "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" qərar qəbul etmişdir. Qərarda zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi-özəl təsərrüfatların yaranması, islahatların həyata keçirilməsində yerli şərait nəzərə alınmaqla mərhələlər üzrə həyata keçirilməsi tövsiyə edilirdi. Kolxoz və sovxozların ləğv edilməsi onların əmlakını kənd əhalisi arasında ədalət prinsipinə uyğun olaraq bölünməsi əsas götürülürdü [6, s. 300].

Digər bir qərar isə elə həmin tarixdə "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi" barədə idi. Bu qərarda sovxoz və kolxozların ictimai mal-qarasını zəruri halda kolxoz üzvlərinə, sovxoz fəhlələrinə satılması məqsədəuyğun hesab edilirdi. Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək, əhalinin ərzaqla təminatını yaxşılaşdırmaq məqsədilə aparılan aqrar islahatlar nəinki Naxçıvanda, eyni zamanda bütöv Azərbaycanda kənd təsərrüfatının dinamik inkişafının təməlini qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edən ümummilli lider Heydər Əliyev ilk dəfə 1992-ci ildə Culfa rayonunun Şurut və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi barədə qərar qəbul etdi. Məhz bu qərarla torpaq-vətəndaş münasibətlərində tarixi və inqilabi hadisə baş verdi. Ulu öndər Heydər Əliyev həmin vaxt yaşananları torpaq islahatının aparılmasında radikal tədbirlər kimi dəyərləndirərək, böyük uzaqgörənliklə bunun bir başlanğıc olduğunu, nəticənin isə ideal olacağına əminliyini vurğulamışdır.

Kənd təsərrüfatını inkişaf etdirmək üçün görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan "Aqrar islahatların əsasları haqqında" və "Sovxoz və kolxozların islahatları haqqında" (1995-ci il), "Torpaq islahatı haqqında" (1996-cı il), "Lizinq xidmətləri haqqında", "Torpaq icraiyyəsi haqqında", "Torpaq bazası haqqında" və s. qanunların çox böyük əhəmiyyəti olmuşdur.

Muxtar respublikada olan 139 təsərrüfatın 119-da və ya 86%-də, 208 kəndin 158-də və ya 76%-də torpaq islahatları aparılmışdır. İslahat nəticəsində 43,3 min ailə torpaq payı almış, 12,4 min ailəyə dövlət torpaq aktları paylanmışdır [4, s.333-334]. Torpaqlar dövlət mülkiyyətində, bələdiyyələrə və

xüsusi mülkiyyətə verilmişdir. Xüsusi mülkiyyətə ən məhsuldar torpaqlar verilmişdir ki, bu da aqrar sahədə sahibkarlığın inkişafına öz təsirini göstərmişdir.

"Azərbaycan Respublikasının torpaq məcəlləsi", "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramı", "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşməsi və kənd təsərrüfatında sahibkarlığa kömək göstərilməsinə dair dövlət proqramı" da təsdiq edilmişdir. Bu proqramlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində torpaq üzərində xüsusi mülkiyyətçinin mövcudluğunu bərpa etmişdir.

Blokada vəziyyətində yaşamasına, istehsal sahələrinin energetika çatışmazlığı şəraitində fəaliyyət göstərməsinə baxmayaraq muxtar respublikada daxili imkanlardan, ehtiyat mənbələrindən daha səmərəli istifadə olunması və həyata keçirilən islahatlar nəticəsində müəyyən uğurlar əldə edilmişdir. Belə ki, 2003-cü ildə muxtar respublikada 71822,2 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da 1998-ci illə müqayisədə 42,9 faiz, 1999-cu illə müqayisədə 51,3 faiz, 2000-ci illə müqayisədə 32 faiz, 2001-ci illə müqayisədə 22,6 faiz, 2002-ci illə müqayisədə isə 11, 7 faiz artmışdır [2, s. 196-197].

Muxtar respublikada aqrar islahatların aparılması ilə yanaşı, Heydər Əliyev respublikanı mövcud iqtisadi böhrandan xilas etmək, əhalini ərzaqla təmin etmək məqsədilə 1991-1993-cü illərdə qonşu Türkiyə və İran dövlətləri ilə geniş iqtisadi əlaqələr yaratmışdır.1992-ci ilin martın 24-də Ankarada Türkiyə Respublikası hökuməti ilə Azərbaycanın Naxçıvan MR arasında bağlanmış iş birliyi protokolu, İran ilə Naxçıvan MR arasında 24 avqust 1992-ci il tarixli protokol bölgənin ağır böhrandan çıxmasında mühüm rol oynamışdı. Uzaqgörən böyük siyasətçi Heydər Əliyev bu dövrdə dünyanın digər ölkələri və beynəlxalq qurumları ilə də münasibətlərin əsasını qoymuşdur [7, s. 61].

1992-ci il 16 sentyabr tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikasında mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri haqqında" Qərar qəbul edilmişdir. Qərarda Azərbaycan hökumətindən dəmir yollarının açılması, muxtar respublikanın elektrik enerjisi ilə təmin olunması, həmçinin muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin ahəngdar fəaliyyətini təmin etmək üçün, əhalinin ərzaq və xalq istehlakı mallarına olan tələbatını ödəmək, qışa mütəşəkkil hazırlaşmaq, müdafiəni möhkəmləndirmək və s. xahiş olunmuşdur [6, s. 322].

Beləliklə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında keçirilən islahataların, qəbul edilən qərar və proqramların həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı və heyvandarlıq məhsullarının artmasına, iqtisadi

sabitliyin bərqərar olmasına gətirib çıxardı ki, bu da Naxçıvan kənd əhalisinin məşğulluq səviyyəsinin artmasına zəmin yaratdı. 1991-1993-cü illərdə aparılan aqrar islahatlar muxtar respublikanın kənd təsərrüfatının yeni inkişaf yollarını müəyyən etməklə torpağa sahib fermer və mülkiyyətlər yaratmışdır.

1999-cu illərin ortalarından etibarən ölkəmiz yeni bir mərhələyə daxil oldu. Milli Məclisin qərarına əsasən prezident Heydər Əliyevin sədrliyi ilə 1995-ci ilin iyun ayının 2-də Konstitusiya Komissiyası yaradıldı. Komissiya tərəfindən "Azərbaycan Pespublikasının Konstitusiyası" layihəsi hazırlandı və 1995-ci il oktyabr ayının 15-də ümumxalq müzakirəsinə verildi. 1995-ci il oktyabr ayının 12-də Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası referendum yolu ilə qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. [1, s. 61].

1995-ci ilin dekabr ayından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbovun muxtar respublikada ulu öndər Heydər Əliyevin inkişaf konsepsiyasını dönmədən, layiqincə həyata keçirməsi nəticəsində müəyyən nəticələr əldə edildi. "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm [5, s. 6].

1998-ci aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul edildi [5, s. 33].

Muxtar respublikada sosial-iqtisadi inkişaf sahəsində əldə olunan bütün nailiyyətlər ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Naxçıvanda ulu öndərin ideyalarını həyata keçirən Ali Məclisin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I çağrış yeddinci sessiyasının qərarlarına uyğun olaraq "2000-ci ildə Naxçıvan Muxtar Respublikasında görüləcək işlərin Proqramı"nı təsdiqlədi. Qeyd etmək lazımdır ki, proqramda sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrində əmlakın özəlləşdirilməsinin, sosial təyinatlı obyektlərin mülkiyyət formasının müəyyənləşdirilməsinin başa çatdırılması, ayrı-ayrı bölgələrdə kənd təsərrüfatı məhsullarının alqı-satqı birjalarının yaradılması, bununla yanaşı əhalinin maddi vəziyyətinin, məişət şəraitinin yaxşılaşdırılması, mədəni və təhsil səviyyəsinin daha da yüksəldilməsi haqqında, sənaye, energetika, rabitə, nəqliyyat kommunal və digər sahələrdə müəyyən işlərin görüləcəyi də planlaşdırılmışdır. Bununla yanaşı 2000-ci ildə sosial sahənin inkişafına, hərbi quruculuq məsələlərinə üstün istiqamət verilmiş, vəsaitlər əsasən sərhəd və dağ kəndlərinin, şəhər və rayon mərkəzlərinin sosial-infrastrukturunun hərəkətə gətirilməsinə, abadlıq və quruculuq işlərinə yönəldilmişdir... 2000-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının həcmi 269 milyard manat olmuşdur ki, bu da 1999-cu illə

müqayisədə 29,6 faiz çoxdur... kənd təsərrüfatı məhsullarının istehsalı da xeyli artmışdır. Belə ki, 13min 454 ton kartof, 42 min 723 ton tərəvəz, 33 min 567 ton bostan məhsulları, 28 min 444 meyvə, 14 min 015 ton üzüm, 45 min 499 ton şəkər çuğunduru və 28, 2 ton tütün istehsal edilmişdir [12, s.5, 25].

Muxtar respublika iqtisadiyyatının bazar münasibətləri əsasında yenidən qurulması ilə əlaqədar onun tərkib hissəsi sayılan aqrar sahədə uğurla həyata keçirilən islahatlar nəticəsində kənd təsərrüfatının sosial və sahə strukturunda köklü dəyişikliklər baş vermişdir. 2005-ci ildə torpaqların, kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin, mal-qara və quşların, kənd təsərrüfatı binalarının, tikililərin sayının dəqiq qeydiyyatı aparılmışdır. Məlum olmuşdur ki, muxtar respublika üzrə 87218 təsərrüfat bu və ya digər formada fəaliyyət üzrə kənd təsərrüfatı ilə əlaqəlidir. Aşkar olmuşdur ki, muxtar respublikada 65min 240 təsərrüfatın əsas gəlir mənbəyi kənd təsərrüfatı fəaliyyətindədir [15, s 35 ].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev ideyalarına sədaqəti və dönmədən həyata keçirməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun səfərbəredici və təşəbbüskar rəhbərliyi Naxçıvanın hərtərəfli inkişaf və tərəqqisini təmin etmişdir. 1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının artımında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində öz təsirini göstərmişdir. Aqrar sahənin inkişafı üçün müxtəlif layihələr, o cümlədən "Azərbaycan kənd investisiyası" layihəsi, "Dağ və yüksək dağlıq ərazilərinin inkişaf etdirilməsi" proqramı həyata keçirilmişdir. Görülən tədbirlər nəticəsində 2009-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalı 185 milyon manatdan çox olmuşdur [5, s 47 ].

Ulu öndər Heydər Əliyevin ölkənin aqrar bölməsinə göstərdiyi qayğı və diqqət, onun imzaladığı fərmanların tam həcmdə icrası Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Xüsusən də aqrar sahəyə dövlət himayəsi dövlət başçısı İlham Əliyevin prezidentliyi dövründə daha da genişlənib. Bu məqsədlə Prezident İlham Əliyevin 2004-cü il fevralın 11-də imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" kənd rayonlarının və aqrar bölmənin inkişafında və kənd əhalisinin məşğulluğunun artmasında mühüm rol oynamışdır.

Dövlət Proqramında regionların ayrı-ayrı sahələri üzrə müəyyən istiqamətlər müəyyən edilmiş, hər istiqamət üzrə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqramda ölkəmizin digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının inkişafına da əhəmiyyətli yer verilmişdir. Belə ki, əhalinin maddi rifahının, sosial-mədəni şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, rayonlararası və rayondaxili yolların bərpası və

tikintisi, dağ regionlarının inkişafı istiqamətində Şahbuz rayonunun dağlıq və yüksək dağlıq ərazilərində kənd təsərrüfatının inkişaf etdirilməsi, sosial obyektlərin bərpası və inkişafı, üzümçülük, taxılçılıq, heyvandarlıq, ipəkçilik, tərəvəzçilik, arıçılıq, xalçaçılıq, meyvəçilik və s sahələrdə qarşıya mühüm vəzifələr qoyulmuşdur [10, s 324, 328, 331, 332].

Əhalisinin 73%-dən çoxu kənddə yaşayan muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramına əsasən sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və kənd əhalisi üçün yeni iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrin həyata keçirilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində və onun rifah halının daha da yaxşılışdırılmasında yeni imkanlar yaratmışdır.

Ümumiyyətlə, 2004-2008-ci illəri əhatə edən 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın və "Naxçıvan Muxtar Respublikasının regional inkişaf Proqramı (2005-2008-ci illər)"nın uğurlu icrası nəticəsində muxtar respulikada sahibkarlıq fəaliyyəti inkişaf etmiş, yeni istehsal sahələri yaradılmış, əhalinin məşğulluq səviyyəsi yüksəldilmiş, rifah halı yaxşılaşdırılmış və həyat səviyyəsi yüksəldilmişdir. Belə ki, muxtar respublikada ilk dəfə olaraq 2009-cu ildə ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini üstələmişdir. Ümumi daxili məhsulun adambaşına düşən həcmi də artmışdır. Əgər 2008-ci ildə bu göstərici 2057 manat idisə, 2009-cu ildə 18 faiz artaraq 2435 manat təşkil etmişdir [13, s. 6].

Keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

2008-ci ilin sentyabrın 17-də "2008-2015-ci illərdə Naxçıvan Muxtar respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ı hazırlanmışdır. Ərzaq məhsullarının istehsalında əsas əmək potensialının əsasən kəndlərdə cəmləşməsi, əkinçilik, heyvandarlıq, arıçılıq, quşçuluq və s. kənd təsərrüfatı sahələri üçün əlverişli şəraitin olması kənd əhalisinə məşğulluq sahəsi yaratmış və onların həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Aydındır ki, iqtisadiyyat inkişaf etdikcə, məhsulun istehsalı artdıqca kənd əhalisinin maddi gəliri artır, onların rifahını səciyyələndirən göstəricilər də yüksəlir. Belə ki, 2004-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri 3,2 dəfə artmışdır. Bu dövrdə muzdla işləyənlərin orta aylıq əmək haqqı 3,5 dəfə artaraq 235,2 manata çatmışdır [2, s.8].

Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə texniki və maliyyə dəstəyi olmuşdur ki, bu da kənd təsərrüfatı məhsullarının yüksək artımına səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci ildə "Kənd təsərrüfatı məhsulları

istehsalçılarına dövlət dəstəyi haqqında" imzaladığı Sərancama uyğun olaraq kənd əməkçilərinə mator yağının, mineral gübrələrin 50 faizinin dövlət tərəfindən ödənilməsi nəticəsində istehsal olunan məhsullar artmışdır. 2004-cü illə müqayisədə 2008-ci ildə kartof istehsalı-2 dəfə, tərəvəz istehsalı 1,1 dəfə, meyvə istehsalı 2,3 dəfə, üzüm istehsalı 2 dəfə artmışdır. Diri çəkidə ət istehsalı 19,6 faiz, yun istehsalı 10,8 faiz, kənd təsərrüfatının ümumi məhsulu isə 2 dəfə artmışdır [2, s.10].

Kənd təsərrüfatının əsas istehsal sahələrindən biri taxılçılıqdır. Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli bir sahə kimi yanaşması nəticəsində müəyyən nailiyyətlər əldə edilmişdir. Belə ki, 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54, 4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl istehsal edilmişdir [5, s.48].

2005-2008-ci illər ərzində Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 3,4 dəfə artaraq 795,7 milyon manata çatmış ÜDM-in adambaşına düşən nominal həcmi 3,3 dəfə artaraq 2057, 3 manat təşkil etmişdir. Muxtar respublikanın sənayesində 6,4 dəfə kənd təsərrüfatında isə 2 dəfə artım olmuşdur " [8, s.7-8].

Regionlarda sosial-inkişafın davamı olaraq Prezident İlham Əliyev 14 aprel 2009-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmişdir. Yeni proqramın hazırlanmasını şərtləndirən əsas məqsəd ölkədə iqtisadiyyatın diversifikasiyasını, onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasını təmin etmək olub. Bununla yanaşı, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə nail olmaq da başlıca hədəflərdən sayılıb. 2009-cu ilin aprel ayının 14-də "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 28 may 2009-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" işlənilib hazırlanmışdır. Proqram muxtar respublikada iqtisadiyyatın inkişafına, infrastrukturun yenilənməsinə və əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi məqsədini daşıyır. Ali məclis sədrinin "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqındakı fərmanında deyir: Muxtar respublikanın mövcud potensialından daha səmərəli istifadə etməklə sənaye sahələrinin və kənd təsərrüfatının inkişafını sürətləndirmək, bu işdə sahibkarlara dəstək olmaq, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaqla yoxsulluq probleminin həllinə nail olmaq və muxtar respublikanı iqtisadi cəhətdən inkişaf etdirmək bu gün qarşıda duran əsas vəzifələrdəndir [8, s. 3-4].

Əvvəlki illərdə olduğu kimi, 2009-2013-cü illərdə də muxtar respublikada sosial siyasətin başlıca məqsədi əhalinin həyat şəraitinin daha da

yaxşılaşdırılmasını təmin etməkdən ibarətdir. Sosial təminat sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri kimi sosial müavinətlərin ünvanlılığını təmin etmək, əlillərə, müharibə veteranlarına, gənc ailələrə, əhalinin aztəminatlı hissələrinə xüsusi diqqət göstərilməsi nəzərdə tutulmuşdur. Proqramda həmçinin elm, səhiyyə, mədəniyyət sahəsində həyata keçiriləcək tədbirlər, muxtar respublikanın təbii sərvətlərindən, əmək potensialından səmərəli istifadə etməklə iqtisadiyyatın inkişafının sürətləndirilməsi, əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, dağ rayonlarına xüsusi diqqət yetirilməsi, bütün rayonlarda internet şəbəkəsindən istifadə imkanlarının genişləndirilməsi və s. öz əksini tapmışdır

Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin maddi-rifah halını yaxşılaşdırmaq məqsədilə yuxarıda adı qeyd olunan fərmanın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır. Nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi nəticəsində muxtar respublikada 2014-cü ildə ümumi daxili məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 milyard 391 milyon manatdan çox olmuşdur [14, s.5].

Qeyd olunan dövrdə Dövlət Proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Buna müvafiq olaraq Prezident İlham Əliyev 27 fevral 2014-cü ildə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərancama uyğun olaraq 2014-cü il 01 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” hazırlanmışdır. Proqramın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir [9, s. 10]. Proqramda kəndlərin infrastruktur və sosial xidmətlərin yaxşılaşdırılması ilə bağlı qəbul edilən qərarların həyata keçirilməsi nəticəsində şəhər və rayon mərkəzlərində, kəndlərdə istifadəyə verilən sosial obyektlər, tikilən inzibati binalar, yaradılan istehsal sahələri insanların rahatlığını, məskunlaşmasını təmin etmişdir.

Sürətli inkişafın nəticəsidir kimi 2018-ci ildə muxtar respublikada 480 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci illə müqayisədə 4,4 faiz çoxdur [16, s. 7].

Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına təsir edən amillərdən biri də yol-nəqliyyat sisteminin rahatlığıdır. Muxtar respublikanın blokada şəraitində olmasına baxmayaraq, quruculuq işi aparılan hər yaşayış məntəqəsində abad və rahat yollar salınır. Yaradılan şəraitin nəticəsidir ki, 2018-ci ildə muxtar respublikada 50,4 kilometr uzunluğunda yeni asfalt yol salınmış, bir körpü tikilmiş, bir körpü isə bərpa olunmuşdur [16, s. 8].

Keçən dövr ərzində informasiya və rabitə sahəsində müəyyən nailiyyətlər əldə edilmişdir. 2018-ci ildə Ordubad rayonunda Rabitə Evi, Yeni Nəsil Telekommunikasya Sistemi yaradılmış, Şərur rayonunda İbadulla Radio-Televiziya ötürücü stansiyası üçün yeni bina tikilmiş və avadanlıqlar alınmışdır.

Muxtar respublikada iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabət qabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)”, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, həmçinin “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib, kənddə məşğulluq sahəsini genişləndirib, kənd əhalisinin həyat səviyyəsini yüksəldib.

Qeyd etmək lazımdır ki, kənd əhalisinin həyat səviyyəsinin yükəldilməsinə təsir edən amillərdən biri də “Ailə təsərrüfatları”nın fəaliyyətinin genişlənməsidir. 2018-ci ildə ailə təsərrüfatlarına dövlət qayğısı davam etdirilmiş, 14 ailə təsərrüfatına kredit verilmiş, “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilmişdir [16, s. 7]. “Ailə təsərrüfatları ili” olan 2019-cu ilin birinci yarısında da muxtar respublikada daxili imkanlardan səmərəli istifadə olunmuş, iqtisadi inkişaf təmin edilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, iş yerləri açılmışdı

2004-cü ildən uğurla icra olunan dövlət proqramları dövlət siyasətinin tərkibi kimi muxtar respublikanın şəhər, qəsəbə və kəndlərinin simasını köklü

şəkildə dəyişmiş, rayonların sosial-iqtisadi inkişaf potensiallarının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə, məskunlaşmasına və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaratmışdır.

28 yanvar 2019-cu il tarixdə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Proqramın əsas məqsədi Azərbaycan Respublikasında regionların davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabət qabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaqdan ibarətdir [17, s. 15].

Sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarının uğurla icrası muxtar respublika iqtisadiyyatının daha da güclənməsini, makroiqtisadi göstəricilərin bütün parametrləri üzrə inkişaf dinamikasının qorunub saxlanmasını təmin etmişdir. Formalaşmış əlverişli iqtisadi mühit muxtar respublikada mövcud olan bütün resurslardan səmərəli istifadənin təşkili, investisiya qoyuluşlarının artırılması, sosial infrastruktur təminatının gücləndirilməsi, yeni istehsal və xidmət sahələrinin, iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 4-cü Dövlət Proqramının qəbul olunması zərurətini yaratmışdır. Dördüncü Dövlət Proqramına uyğun olaraq “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən 29 mart 2019-cu il tarixdə Fərman imzalanmışdır.

Muxtar respublikada Ali Məclis Sədrinin işgüzar fəaliyyəti nəticəsində 2019-cu ilin altı ayı ərzində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfat sahəsində də yüksək nailiyyətlər əldə edilmişdir. 2019-cu ilin ötən dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı banklar tərəfindən 4 milyon 789 min 600 manat kredit verilmiş, məhsul istehsalçıları 7079 ton mineral gübrə ilə təmin olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 133 milyon 73 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,2, süd istehsalı 1,5, yun istehsalı 1,6, yumurta istehsalı 1,3 faiz artmışdır. Kənd təsərrüfatının dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərmiş, nəticədə, bu ilin 6 ayında muxtar respublika üzrə 40 milyon 359 min Amerika Birləşmiş Ştatları dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur... Bu dövrdə iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 278 milyon 115 min manat olmuşdur [11, 29 iyun 2019-cu il].

Bütün sadalanan faktlar bir daha onu sübut edir ki, ümummilli lider Heydər Əliyevin 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında əsasını qoyduğu aqrar islahatlar özünü doğruldaraq sonrakı illərdə daha geniş miqyas almış, Prezident İlham Əliyevin imzaladığı həyata vəsiqə alan regional inkişaf proqramları bu iqtisadi islahatların davamlı xarakter almasına səbəb olmuşdur. Məhz bu proqramlardan irəli gələn vəzifələrin icrası qeyri-neft sektorunun inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə şəhər əhalisi ilə yanaşı kənd əhalisinin də məşğulluğunun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə şərait yaratmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2005, 63 s.
2. Əhmədov N. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 272 s.
3. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində. Bakı: Elm və təhsil, 2016, 357 s.
4. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı. (1924-2014-cü illər). Naxçıvan: Əcəmi, 2016, 351 s.
5. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, 2010, 278 s.
6. Qayıdış (1990-1993). Bakı: Azərbaycan nəşriyyatı, 2008, 840 s.
7. Məmmədov M. Naxçıvan Dövlət Müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011, 296 s.
8. Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan: Qızıl-dağ, 2009, 61 s.
9. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan: Əcəmi, 2014, 63 s.
10. Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər).- Aprel, 2006, 416 s.
11. Şərq qapısı. 29 iyun 2019-cu il
12. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi, 2001, 45 s.
13. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2010, 183 s.
14. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2015, 71 s.
15. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi, 2006, 262 s.

16. 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2019, 63 s.
17. https://banco.az/.../regionların -2019-2023-cu illerde-sosial-i ...